Azərbaycan.-2025.- 8 iyul (№ 137).- S.4.

# “Qarabağ və Şərqi Zəngəzur bu gün nəinki Azərbaycanın, artıq regionun inkişaf etmiş bölgələrindən birinə çevrilməkdədir“

**“Otuz il ərzində işğal altında qalan, vandalizmin qurbanı olan Qarabağ və Şərqi Zəngəzur bu gün nəinki Azərbaycanın, artıq regionun inkişaf etmiş bölgələrindən birinə çevrilməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa prosesi nəticəsində tarixi torpaqlarımız artıq mötəbər tədbirlərə uğurla evsahibliyi edir”.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov söyləyib.

Komitə sədri qeyd edib ki, dövlətimizin başçısının azad olunmuş torpaqlarımıza mütəmadi olaraq həyata keçirdiyi səfərlər, işlərin gedişi ilə şəxsən tanış olması, müvafiq tapşırıq və göstərişlərin verilməsi quruculuq prosesinin uğurla və sürətlə reallaşmasını şərtləndirən əsas amillərdəndir. Artıq doğma torpaqlarımıza qayıdan 50 mindən çox insan 16 şəhər və kənddə böyük qürur hissi ilə yaşayır, çalışır və ya təhsil alır.

“Bir neçə gün əvvəl Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışını etdilər. Beləliklə, müasir infrastrukturun qurulduğu bu kəndimiz də artıq öz doğma sakinlərini qarşılayır”, - deyə Şahin İsmayılov vurğulayıb.

Şahin İsmayılov qeyd edib ki, ölkəmizdə müasir yol infrastrukturunun formalaşdırılması istiqamətindən görülən işlər Qarabağ və Şərqi Zəngəzurda da uğurla davam etdirilir. Bu xüsusda Prezident İlham Əliyevin açılışını etdiyi Əhmədbəyli-Füzuli-Şuşa yolu bölgənin hərtərəfli inkişafına xüsusi töhfə verəcək. Eyni zamanda dövlət başçısının son səfəri zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünə evsahibliyi edən Xankəndi şəhərində də mühüm obyektlərin açılışları baş tutdu. Ümumilikdə Qarabağın iqtisadi inkişafında, burada biznes mühitinin formalaşdırılmasında, məşğulluğun artırılmasında önəmli rola malik olacaq “Xankəndi” Biznes Mərkəzinin fəaliyyətə başlamasını xüsusi qeyd etmək lazımdır. “Xankəndi” Konqres Mərkəzində yaradılan müasir və funksional şərait burada yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün əlverişli imkanlar yaratmaqla bölgənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayacaq.

Qarabağın turizm potensialının inkişafı istiqamətində də önəmli addımların atıldığını qeyd edən Şahin İsmayılov bildirib ki, burada müasir hotellərin, istirahət mərkəzlərinin yaradılması, tarixi və mədəni abidələrin bərpası istiqamətində görülən işlər uğurla davam etdirilir. Bu baxımdan uzunluğu 6 min metrə yaxın olacaq Xankəndi-Şuşa kanat yolu bölgənin turizm potensialının inkişafına, həmçinin insanların iki şəhər arasında rahat hərəkətinə imkan verəcək.

“Dövlətimiz tərəfindən görülən kompleks tədbirlərin nəticəsidir ki, artıq bu tarixi torpaqlarımız yüksəksəviyyəli tədbirlərə uğurla evsahibliyi edir. Cari ildə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşü Laçında keçirildi. Ötən il Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşü Şuşa şəhərində uğurla təşkil olundu. Təbii ki, bu cür yüksəksəviyyəli tədbirlər tarixi torpaqlarımızın inkişafına böyük töhfə verir”, - deyə Şahin İsmayılov vurğulayıb.